9 fevral—Milli Məclisə seçkilər günüdür

GÜNDOĞAR

22 yanvar 2020-ci il № 1 - 2 (6728)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

QANLI YANVAR FACİƏSİNDƏN 30 İL ÖTÜR

Faciə qurbanlarının əziz xatirəsi hər yerdə ümumxalq kədəri ilə anıldı

Tarixdə elə hadisələr var ki, onlar qanla yazıldığından heç vaxt unudulmur, insanların qan yaddaşına dönür. Hər dəfə yada düşəndə, xatırlananda damarlarda qan sanki yenidən donur, ürək ağrıyır, əsəblər tarıma çəkilir. Dediyimiz, ifadə etdiyimiz bu sözlər baş verən qanlı olayın — 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecədə törədilən ağılagəlməz faciənin fonunda bəlkə də çox kiçik görünür. Özü də bu qanlı qırğın qəddar düşmənə yox, heç bir günahı olmayan, yalnız azadlığını, müstəqilliyini istəyən əliyalın insanlara qarşı törədilmişdi.

Xüsusi hazırlanaraq psixoz vəziyyətinə gətirilmiş əsgərlər heç bir vəhşi hərəkətdən çəkinməyərək bu insanlara qarşı sözün əsl mənasında qəddarlıq, amansızlıq nümayiş etdirmiş, heç kimə aman vermədən qocanı da, uşağı da eyni amansızlıqla qətlə yetirmişdilər. Hətta ölümlə çarpışan yaralıların köməyinə gedən "təcili yardım" maşınları belə atəşə tutulmuşdu. Bakının küçələrində əzilmiş, tankların tırtılları altında qalaraq yastılanmış maşınlara, qan gölməçələrinə, orabura səriilmiş insanlara baxanda adama elə gəlirdi ki, bura əsl döyüş meydanı olub, iki düşmən qüvvə bir-birinə qarşı vuruşub. Halbuki, bunlar eyni dövlətin vətəndaşları, vəhşiləşmiş hərbçilər isə uzun illər "Qızıl ordu" dediyimiz Sovet silahlı qüvvələrinin əsgərləri idilər.

Düz 30 il bundan qabaq, o müdhiş gecədə qan tökərək xalqı susdurmağa çalışan imperiya cəlladları nəhayət anladılar ki, bu heç də belə olmayacaq. Azərbaycan xalqı artıq ayılıb, onu əsarətdə saxlamaq daha mümkün deyil. Bundan sonra o, haqqı, hüququ uğrunda daha mütəşəkkil şəkildə ayağa qalxacaq, gec-tez öz azadlığına, müstəqilliyinə qovuşacaqdır. Doğrudan da belə oldu. Aradan bir il ötəndən sonra respublika Ali Sovetinin Azərbaycanın Müstəqilliyi Haqqında qəbul etdiyi Konstitusiya Aktı bütün xalqımız tərəfindən böyük fərəhlə qarşılandı. Milyonlarla insan sözün əsl mənasında azadlığın, müstəqilliyin sevincini yaşadı, sonsuz qürur hissi keçirdi.

Artıq o qanlı gün arxada qalıb. Yanvar faciəsindən 30, müstəqilliyimizin bərpasından isə 29 il ötür. 29 ildir ki, xalqımız ulu öndər Heydər Əliyevin işıqlı ideyalarından güc alaraq qurub yaradır, ölkəmizin tarixinə bir-birindən möhtəşəm qələbələr yazır. Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində tariximiz durmadan zənginləşir, indiki qədər heç vaxt güclü, möhtəşəm olmayan Azərbaycan dünya birliyində, beynəlxalq aləmdə əsl söz sahibinə çevrilib.

Xaqımız, millətimiz canlarını ölkəmizin müstəqilliyi, azadlığı uğrunda qurban verən şəhidləri heç vaxt unutmur, onları daim böyük minnətdarlıq hissilə yad edir, şərəflərini həmişə uca tutur. Ötən illərdə biz bunun canlı şahidi olmuşuq. Faciənin ildönümləri ilə bağlı ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da silsilə tədbirlər təşkil olunub, insanlar şəhidlərin əziz xatirəsini daim anıblar, abidələri önünə tər çiçəklər düzüblər.

Qanlı Yanvar faciəsinin 30-cu ildönümü də ümumxalq kədəri ilə qeyd olundu. Prezident İlham Əliyevin bu münasibətlə imzaladığı sərəncam, sərəncama uyğun olaraq təsdiq olunmuş tədbirlər planı hər kəs üçün aydın istiqamət oldu. Bununla əlaqədar istər ölkə daxilində, istərsə də xarici ölkələrdə ardıcıl tədbirlər həyata keçirildi, qanlı faciənin baş vermə səbəbləri, mahiyyəti, kimlər tərəfindən törədildiyi hər yerdə geniş izah olundu.

Ölkəmizin paytaxtında

Qanlı hadisənin ildönümü günündə — Yanvarın 20-də respublikamız xüsusilə izdihamlı idi. Hər tərəf insan selinə bürünmüşdü. Bütün yollar bir ünvanda — "Şəhidlər Xiyabanı"nda birləşirdi. Böyüklüyündən, kiçikliyindən, mövqeyindən asılı olmayaraq hər kəs bura gəlməyi, şirin canını Vətənin azadlığı, müstəqilliyi yolunda qurban verməyi bacaran şəhidlərimizə ehtiramını bildirməyi özünə borc bilirdi. Hamının çöhrəsində kədər qarışıq bir qürur vardı. Şəhidlər sözün əsl mənasında qəhrəmanlıq göstərmiş, gələcək nəsillər üçün bir nümunə olmuşdular. Aradan 30 il ötəndən sonra onlara olan sevgi, məhəbbət nəinki azalmışdı, əksinə artmışdı. Başqa cür ola da bilməzdi. Bu günkü firavan, xoşbəxt həyatına görə xalqımız şəhidlərə minnətdardır. Onlar canlarını verərək azadlığımızı almışdılar, bizə müstəqilliyimizin böyük sevincini yaşatmışdılar. Azərbaycanımızın bugünkü uğurları, parlaq nailiyyətləri şəhidlərimizə əyan olduğundan yəqin bu gün onların da ruhları şaddır.

Tarixi ildönümü ilə bağlı tədbirlər zəngin idi. Səhərdən başlayaraq insanlar axın-axın "Şəhidlər Xiyabanı"na gedərək məzarları ziyarət edirdilər. Hər tərəf gülün, çiçəyin içində idi. Burada geniş abadlıq işləri həyata keçirilmişdi. Ətrafa yayılan matəm musiqisi ürəkləri titrədirdi. Saat 12: 00-da respublikanın bütün ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Avtomobillər, qatarlar, gəmilər səs siqnalları verdilər. Məzarların ziyarəti axşama kimi davam etdi.

***

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev faciə qurbanlarının əziz xatirəsini yad etmək üçün "Şəhidlər Xiyabanı"na gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Mərasimdə dövlət və hökumət rəsmiləri, respublikanın dini icmalarının rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Onlar da şəhidlərin əziz xatirəsini yad edərək ehtiramlarını bildirdilər.

O günləri xatırlarkən

Neçə vaxt idi Bakıda gərginlik hökm sürürdü. İnsanlar Moskvanın, Kreml rəhbərliyinin ikiuzlu siyasətindən, hər addımda ermənilərə müdafiə etməsindən cana doymuşdular. Mitinqlər ara vermirdi. Vəziyyət günbəgün yox, saatbasaat mürəkkəbləşir, gərginləşirdi. Hamı hiss edirdi ki, belə gedə bilməz, nəsə baş verəcək, mitinqlərin, kütləvi etirazların qarşısı alınacaqdır. Yanvarın 20-də Bakıdan bir-birindən həyəcanlı xəbərlər gəlməyə başladı. Televiziya işləmədiyindən rəsmi məlumat yox idi. Buna görə də həyəcan getdikcə artırdı. Nəhayət məlum oldu ki, Bakıda qırğın törədilib. Çoxlu sayda ölənlər, yaralananlar var. İlk şəhidimiz — Şəmsəddin Orucov rayona gətiriləndə çox şey aydınlaşdı. Xüsusi təyinatlı qoşunların şəhərə daxil olması böyük fəlakətə səbəb olmuşdu. Heç bir günahı olmayan dinc insanlar gülləbaran edilmişdilər. Şəmsəddin də öz evində, ailəsinin, uşaqlarının gözləri qarşısında qətlə yetirilmişdi.

Adamlar dəhşətli hadisədən sarsılmışdılar. Nə baş verdiyi anlaşılmırdı. Dünya ictimaiyyəti Azərbaycanda, Bakıda törədilənlərdən xəbərsiz idi. İnsanları Kremlin törətdiyi bu qanlı hadisədən daha çox özunun qul, kölə psixologiyalı rəhbərləri qəzəbləndirirdi. Onlarda təpər, vətənpərvərlik olsaydı, yəqin Moskva belə qırğını, fəlakəti törətməkdən çəkinərdi. Çox təəssüf ki, o vaxtkı Azərbaycan rəhbərliyi vəzifə, kreslo sevgisini Vətən sevgisindən üstün tutmuşdu.

Ulu öndər Heydər Əliyev məhz belə çətin, ağır bir vaxtda həyatı üçün çox ciddi təhlükəyə baxmayaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Qorbaçov hakimiyyətinin iç üzünü açan bəyanatla çıxış etdi, beynəlxalq aləmi Bakıda törədilən dəhşətli qırğınla bağlı məlumatlandırdı. O vaxt üçün bu böyük cəsarət, əsl qəhrəmanlıq idi. Bu cəsarəti isə ulu öndərə Vətəninə, xalqına olan sonsuz sevgisi, məhəbbəti vermişdi. Məhz bu bəyanatdan sonra dünya ictimaiyyəti, beynəlxalq aləm Bakıda törədilən fəlakətdən xəbər tuta bildi.

Bakıda törətdiyi qanlı faciə ilə kifayətlənməyən mərkəzi hakimiyyət qırğınları respublikanın ayrı-ayrı şəhər və rayonlarında davam etdirdi. Yanvarın 25-də Neftçala rayonunun sakinləri kütləvi şəkildə Şəmsəddin Orucovun yas mərasimində iştirak edirdilər. Gözlərini qan örtmüş, vəhşiləşmiş əsgərlər məhz belə vaxtda dinc əhaliyə atəş açmağa başladılar. Öz kasıbkarlığı ilə məşğul olan Nurəddin Ağahüseynov elə maşınında güllələnərək qətlə yetirildi. Açılan atəşlər nəticəsində neçə-neçə rayon sakini yaralandı, çoxlu sayda insan ciddi əsəb sarsıntısı keçirərək müxtəlif xəstəliklərə düçar oldu. Yaşlı insanlar Bankə qəsəbəsindəki hərbi hissənin hamamında həbs olunanlara verilən dəhşətli işgəncələri bu gün də həyəcanla xatırlayırlar. Bu işgəncələrə dözə bilməyən Əbülfəz Cəfərov məhz bundan sonra həyatla əbədi vidalaşmışdı. Heç bir günahları olmayan bu insanlar Mərdəkandakı Şüvəlan həbsxanasında çox çətin, ağrılı-acılı günlərini yaşamalı oldular. 20 Yanvar küçəsindəki beşmərtəbəli binanın divarlarında güllə izləri də o qanlı günlərin unudulmayan nişanələrin, acı xatirələridir.

Artıq həmin günlər tarixə dönüb. 29 ildir ki, müstəqil Azərbacan inkişaf edərək uğurlar qazanır, nailiyyətlərini durmadan artırır. Ölkəmizin iqtisadi modeli inkişaf etməkdə olan ölkələrə nümunə göstərilirsə, bundan necə sevinməyək, qürur hissi keçirməyək?! Yəqin bu gün ömrünü xalqına, millətinə qurban deyən ümummilli lider Heydər Əliyevin də, ölkəmizin azadlığı, müstəqilliyi üçün canlarını qurban verən şəhidlərimizin də ruhları şaddır. Onlar Azərbaycanı məhz belə müstəqil, xalqımızı məhz belə xoşbəxt görmək istəyirdilər Arzuları çin olub. Azad, müstəqil Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyirsə, deməli, sabahımız daha işıqlı, daha xoşbəxt olacaq.

İmamverdi ZEYNALOV,
20 Yanvar əlili

Neftçala şəhərində



1990-cı ilin Qanlı Yanvar hadisələri Neftçaladan da yan ötməmişdi. Həmin hadisələr zamanı rayonumuz da öz şəhidlərini vermişdi. Əvvəlcə həmyerlimiz Şəmsəddin Orucov Bakı şəhərində öz evində, ailəsinin gözləri qarşısında düşmən gülləsinə tuş gələrək həyatla əbədi vidalaşmışdı. Ondan bir neçə gün sonra əsgərlərin Neftçalaya hücumu nəticəsində Əbülfəz Cəfərovla Nurəddin Ağahüseynov qətlə yetirilmişdilər. Neftçala da öz şəhidlərini vermişdi.

O vaxtdan başlayaraq bütün xalqımız kimi rayonumuzun sakinləri də şəhidləri həmişə ehtiramla yad edərək kədərlənir, qəhrəmanlıqlarından qürur duyurlar. Faciənin 30-cu ildönümü ilə əlaqədar rayonumuzun idarə və müəssisələrində, ümumtəhsil məktəblərində, mədəniyyət obyektlərində, uşaq bağçalarında bir-birindən dəyərli tədbirlər təşkil olunmuşdu. Şəhidlərin şərəfinə ucaldılmış abidənin ətrafında lazımi abadlıq işləri aparılmış, burada səliqə-sahman yaradılmışdı. Dövlət başçısının müvafiq sərəncamına əsasən həyata keçirilmiş bu işlər hamıda, bütün rayon sakinlərində xoş təəssürat yaradırdı.

Yanvarın 20-də Neftçala şəhərindəki 20 Yanvar abidəsi önündə də böyük izdiham yaşanırdı. Rayon sakinləri şəhidlərə olan ehtiramlarını bildirmək üçün buraya gəlməyi özlərinə borc bilmişdilər. Hamının çöhrəsində kədər olsa da, neftçalalılar da Yanvar şəhidlərinin vətənpərvərliklərindən qürur duyurdular. Burada da pərdə-pərdə ətrafa yayılan matəm musiqisi sanki şəhidlərin ruhuna layla deyirdi.

Təyin olunan vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, ayrı-ayrı içtimai təşkilatların nümayəndələri də buraya gəldilər. Tədbir iştirakçıları rayon rəhbərini səmimiyyətlə salamladılar. Abidə önünə rayon icra hakimiyyəti adından əklil qoyuldu. Rayon sakinləri əllərindəki çiçəkləri abidə üzərinə düzməklə şəhidlərə olan ehtiramlarını bildirdilər.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Mərkəzin geniş foyesi də şəhidlərə olan sonsuz ehtiramı yaşadırdı özündə. Məktəblilərin Qanlı Yanvara həsr olunmuş rəsmlərinə, mədəniyyət işçilərinin və şagirdlərin birgə hazırladıqları ədəbi-bədii kompozisiyaya həyəcansız baxmaq olmurdu. Bütün bunlar ürəklərdəki nifrəti artırır, insanları yağı düşmənə qarşı daha sıx birləşməyə çağırırdı.

****

Yanvarın 20-də rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev Heydər Əliyev Mərkəzində Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə şəhid ailələrini, 20 Yanvar əlillərini qəbul edərək çay süfrəsi arxasında onlarla səmimi söhbət etdi, qayğıları ilə maraqlandı. Görüşün sonunda şəhid ailələrinə və 20 Yanvar əlillərinə maddi yardım göstərildi.

Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır.

Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə **qərara alıram:**

1.2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2019-cu il

Yanvar şəhidlərimiz

Əbülfəz Böyükağa oğlu Cəfərov

1966-cı ildə Bankə qəsəbəsində doğulmuşdu. Toyuna hazırlaşırdı. Amma niyyəti ürəyində qaldı, arzusuna çata bilmədi. Sovet "əsgərləri" bu yurdsever, vətənsever həmyerlimizi qanına qəltan etdilər. 13 güllə yarası almış, qolu, qıçı, döş qəfəsi sındırılmış Əbülfəz yanvarın 25-də həlak olmuşdur.

Şəmsəddin Əlihəsən oğlu Orucov

1950-ci ildə anadan olmuşdu. Bakıda yaşayırdı. Elə faciənin baş verdiyi gecədə — yanvarın 20-də öz evində, ailəsinin, uşaqlarının gözləri qarşısında naqafil atılan düşmən gülləsinin qurbanı olmuşdu.

Nurəddin Aslan oğlu Ağahüseynov



1951-ci ildə Həsənabad qəsəbəsində anadan olmuşdu. Sadə aşpaz peşəsi, səmimi münasibəti ilə hörmət qazanmışdı. Yaşadığı qəsəbədə özünə təzə ev tikirdi. Evi kimi arzuları da yarımçıq qaldı, elə öz maşınında güllələndi.

İnzibati ərazi dairələrində hesabat yığıncaqları tam demokratik şəraitdə keçir

Böyük uğurlarla, nailiyyətlərlə zəngin olan bir ili də başa vurduq. Özündə bir sıra mühüm hadisələri, dəyişiklikləri yaşadan 2019-cu il artıq tarixə çevrildi. Biz bu ili ölkədə həyata keçirilən mühüm ictimai-siyasi, sosial islahatların başlanğıcı ili kimi xatırlayacağıq. Minimum əməkhaqlarının 120 manatdan 250 manata qaldırılması, büdcədən maliyyələşən işçilərin əməkhaqlarının, minimum pensiyaların bir neçə dəfə yüksəldilməsi, sistemli kadr dəyişiklikləri və həyata keçirilən digər tədbirlər geniş əhali tərəfindən böyük razılıq hissi ilə qarşılanmış, insanların daha xoş sabahlara olan ümidlərini, inamlarını artırmışdır.

İl nə qədər uğurlu, tutumlu, ürəkaçan olsa da, qarşıda yeni vəzifələr durur. İlin ilk günlərindən başlayaraq idarə və müəssisələrdə ötən illə bağlı təhlillərin aparılması, görülənlərlə yanaşı görülməyən işlərin, həllini gözləyən problemlərin, çətinliklərin aradan qaldırılması üçün yolların müəyyənləşdirilməsi, planlaşdırılması da bununla bağlıdır. Ölkə rəhbərliyi ilə yerli insanlar arasında əlaqələndirci rolunu oynayan inzibati ərazi dairələri üzrə nümayəndəliklərin belə təhlillərə xüsusilə böyük ehtiyacı var. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarından, Nazirlər Kabinetinin, mərkəzi icra strukturlarının qəbul etdikləri qərarlardan irəli gələn vəzifələri yerlərdə məhz nümayəndəliklər həyata keçirir, bu mühüm dövlət sənədlərinin mahiyyətini onlar izah edib aydınlaşdırırlar.

Bu məqsədlə inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə keçirilən hesabat yığıncaqları böyük əhəmiyyət kəsb edir. Bu yığıncaqlar həmin nümayəndəliyin bir illik fəaliyyətinə ictimai bir baxışdır. İctimaiyyət qarşısında çıxış edərək görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışan nümayəndə, həm də görüləcək işlərə nəzər salır, perspektiv planlardan danışır. Həmin yığıncaqlarda ərazidə yaşayan insanların fikirlərinin dinlənilməsi müzakirələri daha canlı və maraqlı edir. Çıxış edənlər görülən işləri qeyd etməklə yanaşı, onları narahat edən çətinliklərə, problemlərə də toxunurlar, lazımi təkliflərini, məsləhətlərini verirlər.

Elə bir hesabat yığıncağı olmayıb ki, rayon rəhbəri, rayon icra hakimiyyəti başçısı yanında fəaliyyət göstərn şuranın üzvləri, başçının müavinləri, başçı aparatının məsul işçiləri bu yığıncaqlarda iştirak etməsinlər. Bunun əhəmiyyəti ondadır ki, rayon rəhbərliyi ərazilərdəki vəziyyətlə bilavasitə yerində tanış olur, vətəndaşları dinləyir, onların ehtiyaclarını öyrənirlər. Rayonun sosial-iqtisadi inkişafı ilə bağlı layihələr, tədbirlər müəyyənləşdirilməsində bütün bunlar diqqətlə nəzərə alınır, əhalinin fikirləri, tələbləri əsas götürülür.

İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə yanvar ayının əvvəllərindən start götürən hesabat yığıncaqları artıq başa çatmaq üzrədir. Rayonun Bankə, Həsənabad, Xıllı qəsəbələrində, Aşağı Qaramanlı, Aşağı Surra, Boyat, Cəngən, Tatarməhlə, Yenikənd, Sarıqamış, Kürkənd, Xəzər, Xolqarabucaq, Xolqaraqaşlı, Qaçaqkənd, Qırmızıkənd və digər kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə yığıncaqlar demokratik, fəallıq şəraitində keçmişdir. Yığıncaqlarda iştirak edən rayon icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri Anar Cəfərov, Vüqar Nağıyev, Rəşid Manafov, Əjdər Kərimov, Telman Zahidov, Habil Əsədov, başçı aparatının məsul işçiləri Elşən Əmirov, Aqil Quliyev, Natiq Kazımov, Vasif Əliyev, Şahin Xankişiyev, Mirhəsən Talıbov, Talıb Talıbov, Xəyyam Qurbanov və başqaları ölkəmizdə gedən böyük quruculuq işlərindən danışmış, aparılan islahatların, kadr dəyişikliklərinin mahiyyətini izah etmiş, Azərbaycanın beynəlxalq aləmdəki roluna geniş aydınlıq gətirmişlər.

Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin iştirak etdiyi Bankə qəsəbə klubunda keçirilən yığıncaq xüsusilə fəallıq şəraitində keçmişdir. Qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Ağagül Səlimov ötən il ərazidə görülən işlər, həyata keçirilən tədbirlər barədə geniş hesabat vermiş, qarşıda duran vəzifələrdən danışmış, vətəndaşları maraqlandıran sualları cavablandırmışdır.

Yığıncaqda sakinlər də ürək sözlərini bildirmişlər. Onlar görülən işlər, həyata keçirilən tədbirlərlə bağlı dövlət başçısı cənab İlham Əliyevə səmimi minnətdarlıqlarını bildirməklə yanaşı qeyd etmişlər ki, rayon rəhbərliyi də daim onların yanında olmuş, çətinliklərin aradan qaldırılmasında köməyini əsirgəməmişdir. Eyni zamanda vətəndaşlar bir sıra məsələlər qaldırmış, təkliflərini irəli sürmüş, fikir və mülahizələrini bildirmişlər.

Yığıncaqda vətəndaşları, yerli sakinləri diqqətlə dinləyən, ayrı-ayrı məsələlərin həlli ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə, müvafiq məsul şəxslərə konkret tapşırıqlarını verən rayon rəhbəri qarşıda duran vəzifələrə də geniş aydınlıq gətirmişdir.

H. ƏSƏDOV

Rayon rəhbərinin səyyar qəbulları davam edir

İlk qəbul Neftçala şəhərindən başlandı

Ötən il rayon icra hakimiyyəti başçısı hörmətli İsmayıl Vəliyevin yerlərdə vətəndaşlarla səyyar qəbulları Yenikənd, Yuxarı Qaramanlı, Sarıqamış kəndlərində yekunlaşdı. Əvvəlki qəbullarda olduğu kimi bu səyyar qəbullarda da başçı aparatının məsul işçiləri, xidmət təşkilatlarının rəhbərləri, ayrı-ayrı müvafiq məsul şəxslər iştirak edirdilər. Hər üç inzibati ərazi dairəsi üzrə nümayəndələrin — Abasqulu İsgəndərlinin, Yalçın Abıyevin, İldırım Zeynallının məlumatları dinlənildikdən sonra yerli sakinlər müraciətlərini etmiş, onları narahat edən məsələləri dilə gətirmişdilər. Bütün müraciətləri diqqətlə dinləyən rayon rəhbəri bir sıra məsələlərin həlli ilə bağlı konkret tapşırıqlarını verdiyindən onlar elə yerindəcə həll olunmuşdu. Həlli, araşdırılması vaxt tələb edən məsələlər isə nəzarətə götürülmüşdü.

Rayonun elə bir kəndi olmamışdır ki, ötən il rayon icra hakimiyyətinin başçısı həmin kənddə, yaşayış məntəqəsində səyyar qəbul keçirməsin. Ən ucqar nöqtələr belə unudulmamışdı. Belə yerlər xüsusilə diqqətdə saxlanılmışdı. Bütün görüşlər səmimilik, işgüzarlıq şəraitində keçmişdi. Adamlar diqqətilə dinlənilmişdi. Əgər əvvəllər yerli sakinlərin əsas şikayəti yolun, təbii qazın olmamasından, elektrik enerjisindəki problemlərdən, su çatışmazlığından idisə, indi müraciətlərin əksəriyyəti fərdi xarakter daşıyır, adamlar ən çox onları narahat edən məsələlərin həll olunmasını istəyirlər.

Yenikənd kənd sakinləri Ayaz Zeynalovun, Abdulhəsən Zeynalovun, Safurə Əzimovanın, Yuxarı Qaramanlı kənd sakinləri Təbiət Quliyevanın, Lətifə Abbasovanın, Bahadir Məmmədovun və neçə-neçə başqalarının müraciətləri bunu aydın şəkildə göstərir. Yaxşı haldır ki, həmin məsələlərin əksəriyyəti öz həllini tapmış, çatışmazlıqlar aradan qaldırılmışdır. Ötən il rayonumuzdakı abadlıq, yenidənqurma işlərinin bir çoxunun məhz rayon rəhbəri ilə keçirilən qəbullardan, görüşlərdən sonra reallaşması, öz həllini tapması da müsbət haldır, rəhbərliklə yerli sakinlərin əlaqələrinin möhkəmlənməsindən xəbər verir.

Yeni ilin ilk günlərindən rayonumuzda xüsusilə işgüzar mühit yaranıb. Ötən ili bütün sahələrdə uğurla başa vuran, əldə olunan nailiyyətləri durmadan möhkəmləndirən neftçalalılar bu il daha böyük qələbələr qazanmaq əzmindədirlər. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin tərtib olunmuş qrafikə uyğun olaraq yerlərdə vətəndaşlarla səyyar qəbulları da ilk gündən belə yüksək fəallıq şəraitində keçir.

Yanvar ayının 8-də sakinlərlə birinci görüş Neftçala 2 saylı tam orta məktəbinin salonunda şəhərin V, VI və VII məhəllələrinin sakinləri ilə keçirildi. Bu dəfə də səyyar qəbulda başçı aparatının məsul işçiləri ilə yanaşı, ayrı-ayrı idarə və müəssisələrin rəhbərləri, müvafiq məsul şəxslər iştirak edirdilər.

Ötən il bu məhəllələrdə təmizlik işlərinin aparılması, yolların hamarlanması və digər abadlıq işlərinin görülməsi sakinləri razı saldığından Mirqasım Mirələkbərov, İbadulla Əliyev, Səmədağa Mənəfov, Əbil Həziyev bu işlərin bu il də davam etdirilməsini arzuladılar, ərazinin su təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlərin görülməsinin zəruriliyini diqqətə çatdırdılar. Əlisahib Hafizov isə yeni bankomatın quraşdırılmasının vacibliyini vurğuladı. Qeyd etdi ki, belə olsa adamlar əmək haqlarını, pensiya və sosial müavinətlərini yubanmadan ala bilər, narahatlıq keçirməzlər.

Növbəti səyyar qəbul yanvarın15-də rayonun ən böyük yaşayış məntəqələrindən birində — Xıllı qəsəbəsində oldu. Əvvəlcə qəsəbə ərazi dairəsi üzrə nümayəndə Namiq Məmmədovun məlumatı dinlənildi. Sonra qəsəbə sakinləri müraciətlərini etdilər.

M.ƏHMƏDOV

Tamamilə yenidən qurulan meydanda yaşanan yeni il gecəsi

Yeni ilin gəlişi sevincdir, fərəhdir insanlar üçün. İlin son günü ən əziz bayramlardan olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü olduğundan bu sevinc daha da artır, hamı unudulmaz bir gün yaşayır. İlin son günü neftçalalılar üçün də çox əzizdir. Həmin gün onlar da sevincini dünya azərbaycanlılarının sevincinə qataraq birlik, həmrəylik nümayiş etdirirlər.



Yeni ilin, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qarşılanması bu il rayonumuzda xüsusilə təntənəli, daha möhtəşəm şəraitdə keçdi. Neftçala uşaq incəsənət məktəbinin yerləşdiyi binanın əsaslı təmir olunaraq qaydaya salınması, qarşısındakı geniş meydanın tamamilə yenidən qurulması ərazinin görkəmini xeyli dərəcədə dəyişərək gözəlləşdirmişdi. Bu ilki bayram tədbirinin bu meydanda keçirilməsi sevinc üstünə yeni sevinc gətirmiş, bayram əhvali-ruhiyyəsini daha da yüksəltmişdi.

Geniş meydan insanlarla dolu idi. Hava qaraldıqca burada qurulan uca yolka bərq vururdu. Yolkanın ətrafı xüsusilə sıxlıq idi. Burada daha çox adam toplaşmışdı. Əksəriyyəti də gül üzlü balalar idi. Bir-birlərini təbrik edən, arzularını bildirən insanların çöhrəsindən sonsuz sevinc yağırdı. Rayonumuzu, Neftçala şəhərini gözəl, səliqə-sahmanlı görmək hamının ürəyindən idi. Bu gözəlliyi yaradanların ünvanına deyilən xoş sözlər, edilən səmimi minnətdarlıqlar da məhz bundan qaynaqlanırdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin, rayonun rəhbər işçilərinin sadə insanlarla birlikdə olması tədbir iştirakçılarında xoş təəssürat yaradır, onları ürəkdən sevindirirdi. Bu da həmrəyliyin gözəl nümunəsi idi.

Hamının böyük sevinclə, səbirsizliklə gözlədiyi belə əziz bayramı nəğməsiz, musiqisiz təsəvvür etmək mümkün deyildi. Rayonmuzun tanınmış musiqi kollektivlərinin, adlı-sanlı sənət adamlarının, müğənnilərin burada olması da bununla bağlı idi. Meydanın baş tərəfində onlar üçün gözəl səhnə qurulmuşdu. Çox keçmədi birbirindən əlvan müsiqi sədaları pərdə-pərdə ətrafa yayılmağa başladı. Qəlbəyatan mahnılar, şux rəqslər ifa olduqca meydandakı əhvali-ruhiyyə daha da yüksəlir, hər tərəfdə xoş ovqat yaşanırdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin neftçalalılara ünvanlanmış səmimi bayram təbriki meydanda sevinc üstünə yeni sevinc gətirdi, tədbir iştirakçılarında minnətdarlıq duyğuları oyatdı. Bunu onların gur alqışları bir daha təsdiqlədi.

Yeni ilin simvolları olan Şaxta baba və Qar qızın gəlişi yeni alqışlara səbəb oldu. Onlar meydanda dövrə vuraraq tədbir iştirakçılarını salamlayır, Yeni ildə neftçalalılara bir-birindən xoş günlər, ruzi-bərəkət arzulayırdılar. Şaxta babanın və Qar qızın uşaqlara verdikləri sovqatlar, hədiyyələr balacaların böyük sevincinə səbəb olurdu. Təkcə uşaqlar deyil, elə böyüklər də onlarla birlikdə olmaqdan, əylənməkdən məmnun qalırdılar.

Meydan boyu gəzişən, burada qurulan səliqə-sahmanlı çayxanada çay içən sakinlər şirin söhbət edir, bayram fərəhlərini bir-birləri ilə bölüşürdülər. Yeni ilin və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün böyük sevincini yaşayan neftçalalıların 2020-ci ildən gözləntiləri daha çoxdur. Onlar inanırlar ki, ölkəmizdə 2019-cu ildən başlanan islahatlar, yeniləşmə prosesi bu il xüsusilə genişlənərək özünün yeni mərhələsinə daxil olacaqdır. Bundan isə bütün xalqımız kimi neftçalalılar da yetərincə faydalanacaqlar. Onlar buna əmindirlər.

Bir-birindən əlvan musiqi nömrələri, bədii proqramlarla zəngin olan bayram tədbiri atəşfəşanlıqla sona yetdi. Atılan fişənglər göydə rəngarəng işıq saçır, səmanı gur işığa qərq edirdi. Əziz bayramlarını sonsuz sevinclə, gözəl əhvali-ruhiyyə ilə qarşılayan neftçalalılar yeni ilə xoş ovqatla, yeni arzularla qədəm qoydular.

Ruqiyə ƏSƏDOVA

Yanğınsöndürənlərin bayram sevinci

Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə yaradılmış Fövqəladə Hallar Nazirliyi ölkədə mülki müdafiə sahəsində dövlət siyasətini həyata keçirən başlıca qurumdur. Yanğından mühafizə sahəsi bu orqanların arasında xüsusilə böyük əhəmiyyət daşıyır. İnsanların minbir əziyyətlə qurub yaratdıqlarının adi bir ehtiyatsızlıq üzündən çox qısa zaman kəsiyində yanaraq külə dönməsi doğrudan da dəhşətli hadisədir. Bu dəhşətli hadisənin qarşısının alınmasını, bununla bağlı geniş proflaktik tədbirlərin görülməsini məhz yanğınsöndürənlər həyata keçirirlər.

Rayonumuzun yanğınsöndürənləri də belə ekstremal şəraitlərdə dəfələrlə nümunə göstərmişlər. Neftçalalıların onların haqqında daim hörmətlə söhbət açmaları, ünvanlarına xoş sözlər söyləmələri də bununla bağlıdır. Son illərdə yanğınsöndürənlərin maddi durumlarının xeyli dərəcədə yaxşılaşdırılması, çalışdıqları sahələrin tamamilə yenidən qurulması, bu sahənin ən müasir avadanlıqlarla, texniki vasitələrlə, maşın və mexanizmlərlə təmin olunması rayonumuzda da xidmətin yüksək səviyyədə qurulmasına öz müsbət təsirini göstərir. Onlar Prezident İlham Əliyev tərəfindən göstərilən bu qayğı və diqqətə görə minnətdarlıqlarını bildirməklə yanaşı, həm də səylərini durmadan artırırlar. Çalışırlar ki, qayğı və diqqətə layiq olsunlar, onlara göstərilən etimadı həmişə doğrultsunlar.

Dövlət başçısının müvafiq sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin yarandığı gün — 16 dekabr həm də bu sahədə çalışanların, o cümlədən yanğınsöndürənlərin peşə bayramıdır. Həmin gün respublikamızın digər yanğından mühafizə hissələrinin əməkdaşları kimi rayonumuzun yanğından mühafizə hissəsinin kollektivi də xoş hisslərlə, əsl bayram əhvali-ruhiyyəsi ilə yaşayır. Bu il də belə idi. Yanğınsöndürənləri biz də ürəkdən təbrik etdik, çətin və şərəfli işlərində, fəaliyyətlərində uğurlar arzuladıq. Əlamətdar və tarixi günləri həmişə özünəməxsus geniş hazırlıqla qarşılayan kollektiv peşə bayramına da əliboş gəlməmişdi. Onu da layiqincə qarşılamaq üçün maraqlı tədbirlər hazırlamışdı.

Ötən illərdə olduğu kimi bu dəfə də tədbirin ilkin mərhələsi ümummilli lider Heydər Əliyevin abidəsinin ziyarətindən başlandı. Neftçala Yanğından Mühafizə Hissəsinin bütün əməkdaşları ulu öndərin adını daşıyan meydana toplaşmışdılar. Hissənin rəisi Anar Salahov onlarla birlikdə idi. Yanğınsöndürənlər böyük qürur hissi ilə abidə önünə gələrək buraya tər çiçəklər düzdülər, bu dahi insana özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Gülqoyma mərasimində rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Mərasim başa çatdıqdan sonra tədbir hissənin inzibati binasında davam etdirildi. Hissənin rəisi Anar Salahov çıxış edərək keçilən yollara bir daha nəzər saldı, ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin bu sahənin inkişafı, müasirləşdirilməsi üçün gördükləri işlərdən danışdı.

Murad ƏHMƏDOV

Orduya qış çağırışı uğurla davam edir

Müstəqilliyimizin bərpasından keçən 29 ildə ictimai-siyasi həyatımızın digər sahələrində olduğu kimi, ordu quruculuğunda da çox böyük uğurlar, nailiyyətlər əldə edilib. Başqa cür də mümkün deyil. Ona görə ki, erməni kimi nankor qonşumuz, düşmənimiz var. Belə qonşusu, düşməni olan ölkənin ordusu, Silahlı Qüvvələri də güclü, məğlubedilməz olmalıdır. Ötən əsrin ortalarında biz torpaqlarımızın bir hissəsini məhz nizami ordumuzun olmaması üzündən itirdik.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən nizami ordu quruculuğu istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsi də bununla bağlı idi. Bu yolu uğurla davam etdirən Prezident İlham Əliyevin bu sahədə atdığı addımlar xüsusilə qətiyyətli oldu. Tamamilə yenidən qurularaq müasirləşdirilən Silahlı Qüvvələrimizin ən yeni hərbi texnika ilə təmin olunması onun döyüş qabliyyətini qat-qat artırdı, ordumuzu məğlubedilməz gücə, qüvvəyə çevirdi. 2016-cı ilin Aprel döyüşləri bunun əyani nümunəsi oldu. Ordumuz sözün əsl mənasında ipə-sapa yatmayan düşmənə vay verdi, onu dizi üstə çökdürdü.

Ordunun yenidən qurulmasında, komplektləşdirilməsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, onun yerlərdəki qurumlarının üzərinə çox məsul vəzifələr düşür. SHXÇDX-nin rayonumuzdakı şöbəsinin əməkdaşları bu vəzifələrin məsuliyyətini dərindən dərk edərək orduya çağırış kampaniyalarında həmişə fəal iştirak edirlər. Dövlət başçısı cənab İlham Əliyevin sərəncamına əsasən həyata keçirilən növbəti tədbir də artıq başa çatmaq üzrədir. Rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi Tofiq Mehtiyev bununla bağlı belə dedi:

— Ölkəmizdə çox böyük ictimai-siyasi hadisələr yaşanır. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi köklü islahatlar, xalqın maddi rifah halının yaxşılaşdırılması istiqamətində atdığı addımlar böyük razılıq hissilə qarşılanır, milyonlarla insanın səmimi minnətdarlığına səbəb olur. Yerli idarəetmənin daha da təkmilləşəcəyinə təminat yaradan bələdiyyə seçkiləri uğurla başa çatdı, tam demokratik və aşkarlıq şəraitində xalq öz seçimini etdi. Qarşıdan isə daha böyük siyasi kampaniya — parlament seçkiləri gəlir. İndi bununla əlaqədar ölkəmizin hər yerində geniş hazırlıq işləri həyata keçirilir, lazımi tədbirlər görülür. Orduya qış çağırışı məhz belə bir qaynar vaxta təsadüf etdiyindən əməkdaşlarımız da fəallıqlarını artıraraq bu mühüm tədbiri layiqincə başa çatdırmağa səy göstərirlər.

Həmişə olduğu kimi bu dəfə də orduya növbəti çağırışı Azərbaycan Prezidenti, ölkənin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı əsasında aparırıq. Eyni zamanda vətən qarşısındakı xidməti borclarını yerinə yetirən gənclər də ehtiyata buraxılırlar. Çox sevinirik ki, çağırışçı gənclər ordu sıralarına böyük ruh yüksəkliyi ilə yollanırlar. İndi heç bir gənc ordudan yayınmağı özünə sığışdırmır. Buna valideynlər də pis baxırlar. Bu bizi çox sevindirir, qürurlandırır. Şanlı Aprel döyüşlərindən sonra istər gənclər, istərsə də onların valideynləri arasında əhvali-ruhiyyə xeyli dərəcədə yüksəlmişdir. Hər bir gənc ordu sıralarına vaxtında yollanmağı, Vətənin sərhədləri keşiyində sayıq dayanmağı özünə müqəddəs borc bilir.

Artıq orduya qış çağırışı uğurla başa çatmaq üzrədir. Əvvəlki vaxtlarda oduğu kimi çağırış normasını bu dəfə də lazimi səviyyədə yerinə yetirəcəyik. Çağırışın uğurlu təşkilində ayrı-ayrı idarə və müəssisələrin, inzibati ərazi dairələri üzrə nümayəndəliklərin, bələdiyyələrin rolu böyükdür. Onlar bu dəfə də fəallıq göstərərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdilər. Rayon rəhbərliyindən xüsusilə razıyıq. Başçı aparatının köməyini daim hiss etmişik. Rayon rəhbərinə, bizimlə əlbir çalışan təşkilatların hər birinə səmimi minnətdarlığımızı bildiririk.

Əkilən yeni ağaclar göz oxşayır

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı respublikamızda 650 min ağacın əkilməsi təşəbbüsü hər yerdə böyük əks-səda doğurdu. İnsanlar ekologiyamızın saflaşmasına, respublikamızın daha da yaşıllaşaraq gözəlləşməsinə xidmət edən bu nəcib təşəbbüsə ürəkdən qoşularaq ağacəkmə kampaniyasında fəal iştirak etdilər.

Bu xeyirxah işdə neftçalalılar da yüksək mütəşəkkillik göstərdilər. Həmin gün rayonun ayrı-ayrı yerlərində, Neftçala şəhərində 20 mindən artıq müxtəlif ağac tingləri əkildi, onların inkişafı üçün lazımi şərait yaradıldı.

Şəkildə: Yeni əkilən ağaclardan görünüş

ƏN LAYÍQLÍLƏRÍ SEVƏK, SEÇƏK, SƏS VERƏK

Bələdiyyə seçkiləri başa çatdı, qarşıda parlament seçkiləridir

Bələdiyyə seçkilərini uğurla başa vurduq. Əlbəttə, bu birdən-birə olmadı. Bunun üçün aylarala iş gördük, Mərkəzi Seçki Komissiyasının təsdiqlədiyi təqvim planında

nəzərdə tutulan tədbirləri ardıcıllıqla yerinə yetirdik. MSK-nın dairə seçki komissiyaları üçün təşkil etdiyi treninqlər bu işdə çox mühüm rol oynadı. Prezident Administrasiyasının, Mərkəzi Seçki Komissiyasının, respublika prokurorluğunun, Daxili İşlər Nazirliyinin və digər əlaqədar təşkilatların məsul şəxslərinin mühazirələrində seçkinin keçirilmə qaydalarındakı, qanunlardakı yeniliklər geniş və hərtərəfli izah olunduğundan bizim üçün çox faydalı oldu. Buna müvafiq olaraq yerlərdə biz də məntəqə seçki komissyalarının rəhbərləri üçün seminarlar keçirdik, yeniliklər, qaydalar, qarşıda duran vəzifələr onlara da geniş izah olundu, suallara hərtərəfli aydınlıq gətirildi.

Bütün seçki məntəqələrində səsvermə üçün normal şərait yaradılmışdı. Məntəqələr lazım olan avadanlıqlarla təmin olunmuş, telefonlaşdırılmışdı. Seçici siyahıları dəqiqləşdirilərək məntəqələrdə diqqəti cəlb edən yerlərdən asılmışdı. Rayonun "Gündoğar" qəzetində məntəqələrin hüdudları, "Sərbəst toplaşmaq haqqında" qanuna müvafiq olaraq belə tədbirlərin keçirilməsi üçün açıq və qapalı yerlər barədə məlumatlar dərc olunmuş, mövqeyindən, siyasi baxışlarından asılı olmayaraq təbliğat kampaniyası dövründə bütün namizədlər üçün eyni lazımi şərait yaradılmışdı. Bir sözlə, butun tədbirlər Seçki Məcəlləsinə, MSK-nın Təqvim Planına uyğun aparıldığından heç bir çətinliyimiz olmadı, rayon ərazisində səsverməni həyata keçirə bildik.

İndi isə biz daha mühüm siyasi kampaniya ərəfəsindəyik. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən fevralın 9-da Milli Məclisə növbədənkənar parlament seçkiləri keçiriləcəkdir. Mərkəzi Seçki Komissiyası heç də Milli Məclis formalaşdırmır. Seçki Məcəlləsinə, Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun tədbirlər həyata keçirməklə seçki prosesinin demokratikliyini, şəffaflığını təmin edir. Əgər bütün proseslər şəffaf, demokratik keçərsə, deməli xalqın iradəsini yerinə yetirəcək yeni deputatlar korpusu formalaşacaq, zamanın tələblərinə cavab verən daha çevik Milli Məclis fəaliyyətə başlayacaqdır.

Yenə də bütün işlərimizi MSK-nın təstiqlədiyi Təqvim Planı əsasında qururuq. Artıq deputatlığa namizədlərin qeydə alınması prosesi qanuna uyğun şəkildə başa çatmışdır. Dairəmizdə qeydə alınan namizədlərin sayı 15 nəfərdir. Bundan sonra seçkidə ən mühüm proses — təbliğat-təşviqat kampaniyası başlayır. Bununla bağlı bütün inzibati ərazilərdə bu xarakterli tədbirlərin istər açıq, istərsə də qapalı yerləri məlumdur. Bu barədə rayonun "Gündoğar" qəzetinin bu sayında növbəti siyahı-cədvəl yerləşdirilib. Bələdiyyə seçkilərində olduğu kimi, siyasi mənsubiyyətindən, mövqeyindən asılı olmayaraq qeydə alınmış bütün deputatlığa namizədlər üçün bu dəfə də eyni şərait yaradılacaqdır. Hər kəs təbliğat və təşviqatını qanuna müvafiq şəkildə apara, kimliyini, hansı potensiala malik olduğunu ortaya qoya bilər.

Təbliğat-təşviğat kampaniyası başa çatdıqdan sonra əsas məsələ səsvermənin normal təşkilidir. Bələdiyyə seçkiləri bu yaxınlarda başa çatdığından seçki məntəqələrində bununla bağlı geniş hazırlıqlar görülmüş, lazımi tədbirlər həyata keçirilmişdir. Buna baxmayaraq biz səsvermə məntəqələrimizə bir daha nəzər salır, seçici siyahılarını diqqətlə nəzərdən keçirir, lazım olan digər işləri vaxtlı-vaxtında yerinə yetirməyə çalışırıq. Ona nail olmağa səy göstəririk ki, məntəqələrimiz səsverməyə tam hazır olsun, neftçalalı seçicilər də Konstitusiyamızın onlara verdiyi seçim hüquqlarından yetərincə bəhrələnməklə yeni formalaşacaq Milli Məclisə özlərinin layiqli namizədini seçə bilsinlər.

Şaiq MƏMMƏDOV,
61 saylı Neftçala Dairə
Seçki Komissiyasının sədri

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 9 fevral 2020-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkiləri ilə bağlı toplantı (yığıncaq, mitinq, nümayiş, küçə yürüşü, piket) keçirilməsi üçün müəyyən edilmiş açıq və qapalı yerlər barədə siyahı

Açıq yerlər			Qapalı yerlər			
Sıra Nəsi	Ünvanı	Tutumu (nəfərlə)	Sıra Nəsi	Ünvanı	Tutumu (nəfərlə)	Qeyd
1	Nəriman Nərimanov adına Neftçala şəhər stadionu	10000	1	Xanoğlan Məmmədov adına Neftçala rayon Mədəniyyət Mərkəzi	650	
2	Həsənabad qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi	3000	2	Həsənabad qəsəbə Mədəniyyət evi	150	
3	Bankə qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi	3000	3	Bankə qəsəbə Mədəniyyət evi	200	
4	"Melioservis" ASC-nin qarşısındakı ərazi	3000	4	Xıllı qəsəbə klubu	100	
5	Boyat kənd Diyarşunaslıq evinin qarşısındakı ərazi	1000	5	Boyat kənd Diyarşunaslıq evi	300	
6	Aşağı Qaramanlı kənd Folklor evinin qarşısındakı ərazi	3000	6	Aşağı Qaramanlı kənd Folklor evi	300	
7	Qədimkənd bələdiyyəsinin binasının qarşısındakı ərazi	1000	7	Qədimkənd bələdiyyəsinin binası	50	
8	Aşağı Surra kənd Folklor evinin qarşısındakı ərazi	1000	8	Aşağı Surra Folklor evi	300	
9	Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodunun qarşısındakı ərazi	500	9	Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodu	100	
10	Tatarməhlə kənd Diyarşunaslıq evinin qarşısındakı ərazi	1000	10	Tatarməhlə kənd Diyarşunaslıq evi	150	
11	Yuxarı Qaramanlı kənd klubunun qarşısındakı ərazi	1500	11	Yuxarı Qaramanlı kənd klubu	100	
12	Qaraqaşlı kənd Sənətkarlıq evinin qarşısındakı ərazi	1500	12	Qaraqaşlı kənd Sənətkarlıq evi	70	
13	Yeniqışlaq kənd klubunun qarşısındakı ərazi	1500	13	Yeniqışlaq kənd klubu	100	
14	Xəzər bələdiyyəsinin binasının qarşısındakı ərazi	1500	14	Xəzər bələdiyyəsinin binası	50	
15	Xol Qarabucaq kənd Folklor evinin qarşısındakı ərazi	2000	15	Xol Qarabucaq kənd Folklor evi	200	
16	Xol Qaraqaşlı kənd Folklor evinin qarşısındakı ərazi	2000	16	Xol Qaraqaşlı kənd Folklor evi	200	
17	Qırmızıkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi	2000	17	Qırmızıkənd kənd Mədəniyyət evi	200	
18	Qaçaqkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi	1500	18	Qaçaqkənd kənd Mədəniyyət evi	200	

61 saylı Neftçala seçki dairəsi üzrə namizədlərin siyahısı

Soyadı, adı, atasının adı	Doğum tarixi	Təhsili, ixtisası	Əsas iş və xidmət yeri, vəzifəsi(bu olmadıqda fəaliyyət növü)	Namizədliyi irəli sürülmüşdür (özü)	Namizədliyi irəli sürülmüşdür (təşəbbüs qrupu)	Namizədliyi irəli sürülmüşdür (siyasi partiya)
ABDULLAYEV XƏQANİ İMRAN	07.05.1961	Ali, Mühəndis	MİLLİ AVİASİYA AKADEMİYASI, ELMİ KATİB	ÖZÜ		
ABDULLAYEVA PƏRVANƏ SALMAN	10.11.1974	Orta ixtisas, Tibb bacısı	İŞLƏMİR	ÖZÜ		
AĞALİYEVA SEVİNC TAPDIQ	01.08.1978	Ali, Fizik	AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FİZİKA İNSTİTUTU, ELMİ İŞÇİ	ÖZÜ		
BABA RAMİL YUNUS	28.06.1979	Ali, Sosioloq	"CASPİAN İNTERNATİONAL BROADCASTİNG COMPANY" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, PRODÜSER	ÖZÜ		
BƏBİRZADƏ ZAHİR SİYASƏT	26.07.1975	Ali, Maliyyə	"TƏMİZ QAZ" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN ŞİRVAN REGİONAL MƏRKƏZİ, XƏTT BAXICISI	ÖZÜ		
BƏDƏLOVA GÜNEL ƏLİBƏY	16.11.1980	Ali, Müəllim	NEFTÇALA ŞƏHƏR E. HƏBİBOV ADINA 4 NÖMRƏLİ TAM ORTA MƏKTƏB, İBTİDAİ SİNİF MÜƏLLİMİ	ÖZÜ		
ƏSƏDOV KAMRAN ALİM	31.08.1985	Ali, Tarixçi	TƏHSİL XİDMƏTLƏRİ ARAŞDIRMA VƏ TƏHLİL MƏRKƏZİ, DİREKTOR	ÖZÜ		
ƏSGƏROV AĞALAR MƏMMƏDAĞA	21.01.1961	Orta, Yoxdur	İŞLƏMİR	ÖZÜ		
HEYDƏROV BƏHRUZ HABİL	12.12.1981	Ali, Mühəndis	İŞLƏMİR	ÖZÜ		
MƏLİKOV SOLTANHƏMİD HİLAL	15.05.1957	Ali, Fizik	"LAZER" ELMİ MƏRKƏZ, DİREKTOR	ÖZÜ		
NAĞIYEV SAMİR BEYDULLA	31.07.1983	Ali, Maliyyə-Kredit	İŞLƏMİR	ÖZÜ		
QURBANOV HÜSEYİN YUNUS	28.12.1994	Natamam ali, Psixoloq	İŞLƏMİR	ÖZÜ		
RÜSTƏMXANLI SABİR XUDU	20.05.1946	Ali, Filoloq	VƏTƏNDAŞ HƏMRƏYLİYİ PARTİYASININ SƏDRİ			VHP
SADIQOVA GÜLTƏKİN ZAKİR	19.10.1976	Ali, Tərcüməçi	NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ MÜAVİNİ-İCTİMAİ-SİYASİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR ŞÖBƏSİNİN MÜDİRİ			YAP
ZAKİROV ƏFZƏLƏDDİN ŞAHVERƏN	08.08.1955	Ali, Hərbiçi	PENSİYAÇI	ÖZÜ		

61 SAYLI NEFTÇALA SEÇKİ DAİRƏSİNDƏ 2020-Cİ İL FEVRALIN 9-DA KEÇİRİLƏCƏK MİLLİ MƏCLİSƏ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏR ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN DİSLOKASİYASI

1 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər N.Gəncəvi adına 3 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə H.Əliyev prospektindəki 60b və 39, M.Əsədov küçəsindəki 60 saylı evdən, S.Vurğun küçəsindəki 70 saylı evdən, E.Bağırov küçəsindəki 62 saylı evdən axıra kimi, 28 May və R.Rza küçələrindəki yaşayış evləri daxildir.

Tel: 3-22-28, 055-858-54-21

2 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhəri 2 saylı klubda yerləşir. Məntəqəyə M.Ə.Sabir və S.Bayramov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 3-42-11, 051-439-94-49

3 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər X.Məmmədov adına Mədəniyyət və İncəsənət Sarayında yerləşir. Məntəqəyə H.Cavid, Babək küçələrindəki, H.Əliyev prospektindəki 9, 10, 11, 11A, 12, 13 və 15, 15A, M.Ə.Rəsulzadə küçəsindəki 5, 6, 12, 12A, 12B, 16, 16A, 43 və 45 saylı binalar daxildir.

Tel: 3-15-91, 050-350-70-16

4 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər Uşaq İncəsənət Məktəbində yerləşir. Məntəqəyə E.Bağırov küçəsindəki 1-62, M.Əsədov küçəsindəki 2, 3, 5, 35-61, H.Əliyev prospektindəki 1, 3, 5, 7, M.Qorki küçəsindəki 2, "20 Yanvar" küçəsindəki 1, Kimyaçılar şəhərciyindəki 1, 18, S.Vurğun, Y.Hacıyev küçələrindəki evlər daxildir.

Tel: 3-14-73, 050-493-08-36

5 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər E.Həbibov adına 4 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə A.A.Bakıxanov, M.P.Vaqif, S.Rəhimov, "20 Yanvar", X.B.Natəvan, M.Hadi, Z.Məcidov, M.Ə.Rəsulzadə küçələrindəki 17-45, H.Aslanov, A.Mütəllimov 3-dən küçənin sonuna kimi, "20 Yanvar" 3, 14, H.Əliyev prospekti 2-24, 30, 32, 34, 36, 38, 40, 42, 46, 48, 50, 52, 54, Kimyaçılar şəhərciyindəki 19-22 saylı binalar daxildir.

Tel: 3-13-15, 055-325-06-95

6 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər Folklor evində yerləşir. Məntəqəyə A.Mütəllimov küçəsindəki 1-2, M.Əsədov küçəsindəki 1A, 4, 9, 11, 13 saylı binalar, Ü.Hacıbəyov 1B, 10, 12, 14, 16, köhnə qəsəbədəki X.Cəfərov, M.Ə.Rəsulzadə 1-16, C.Abdullayev və M.Müzəffərov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 3-15-31, 051-897-98-43

7 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala Suvarma Sistemləri İdarəsinin binasında yerləşir. Məntəqəyə Z.Sadıqov küçəsi və 7-ci məhəllədəki yaşayış evləri daxildir.

Tel: 3-17-80, 051-928-96-76

8 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər Ə.Piriyev adına şəhər 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə 5-ci və 6-cı məhəllənin yaşayış evləri daxildir.Tel: 3-36-41, 070-936-67-11

9 saylı Həsənabad qəsəbə seçki məntəqəsi

Məntəqə Həsənabad qəsəbə Ş.Orucov adına tam orta məktəbində yerləşir. Məntəqəyə Sahil, A.Dadaşov, N.Gəncəvi, S.Vurğun, N.Nərimanov, M.Füzuli, M.Ə.Rəsulzadə, N.Ağahüseynov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 66-2-44, 050-683-53-75

10 saylı Həsənabad qəsəbə seçki məntəqəsi

Məntəqə Həsənabad qəsəbə N.Ağahüseynov adına uşaq bağçasında yerləşir. Məntəqəyə V.Məmmədov, M.Ə.Sabir, Koroğlu, "20 Yanvar", H.Z.Tağıyev və Z.Məcidov, H.Hacıyev, Ş.Orucov və Q.Babayev küçələrindəki yaşayış evləri daxildir.

Tel: 66-2-58, 050-432-86-20

11 saylı Mirqurbanlı kənd seçki məntəqəsi

Məntəqə T.İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Mirqurbanlı, Günəşli və Söyüdlü kəndlərindəki yaşayış evləri daxildir. Tel: 69-1-59, 050-380-69-87

12 saylı Bankə qəsəbə seçki məntəqəsi

Məntəqə Bankə qəsəbəsindəki mədəniyyət evində yerləşir. Məntəqəyə M.P.Vaqif, M.V.Vidadi, M.Hüseynzadə, Q.Məmmədov, Pişəvəri, V.Ağayev, H.Əmənov küçələrindəki evlər, I-II məhəllələrdəki və S.Vurğun 1-55 saylı yaşayış evləri daxildir.

Tel: 52-5-17, 051-892-72-31

13 saylı Bankə qəsəbə seçki məntəqəsi

Məntəqə Ə.Cəfərov adına Bankə qəsəbə 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə S.Vurğun küçəsindəki 56-136 saylı evlər, L.Rzayev, B.Eyvazov, T.Xantəmirov küçələrindəki evlər, III-V məhəllələrdəki evlər, A.Nəsirov küçəsindəki 22-64 saylı evlər və C.Mikayılov küçəsindəki yaşayış evləri daxildir.

Tel: 52-4-53, 050-685-11-26

14 saylı Bankə qəsəbə seçki məntəqəsi

Məntəqə S.Vurğun adına Bankə qəsəbə 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə Ə.Gözəlov, R.Əliyev, Ə.Məmmədov, N.Nərimanov, S.Paşin küçələrindəki evlər və A.Nəsirov küçəsindəki 1-21 saylı yaşayış evləri daxildir.

Tel: 52-5-13, 050-491-51-73

15 saylı Xıllı qəsəbə seçki məntəqəsi

Məntəqə Xıllı qəsəbəsindəki R.Gözəlov adına 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə M.Füzuli, N.Gəncəvi, Y.Qasımov, V.Məmmədov, İ.Sultanov, H.Xəlilov və N.Nərimanov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 44-2-90, 050-473-51-59

16 saylı Xıllı qəsəbə seçki məntəqəsi

Məntəqə Xıllı qəsəbəsindəki F.Quliyev adına 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə A.Cəfərov, İ.Babayev, İ.Nəsimi və F.Quliyev küçələrindəki yaşayış evləri daxildir.

Tel: 44-2-28, 050-425-70-51

17 saylı Kürkənd kənd seçki məntəqəsi

Məntəqə V.Soltanov adına Kürkənd kənd ümumi orta məktəbində yerləşir. Məntəqəyə Kürkənd kəndindəki yaşayış evləri daxildir.

Tel: 3-22-26, 050-455-30-05

18 saylı II Mayak kənd seçki məntəqəsi

Məntəqə A.Səlimov adına 2 saylı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə II Mayak kəndindəki yaşayış evləri daxildir.

Tel: 050-351-49-62.

19 saylı Yeniqışlaq kənd seçki məntəqəsi

Məntəqə A.Dadaşov adına Yeniqışlaq kənd ümumi orta məktəbində yerləşir. Məntəqəyə Yeniqışlaq və Haqverdili kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 59-1-16, 050-473-51-41

20 saylı Mikayıllı kənd seçki məntəqəsi

Məntəqə Mikayıllı kənd umumi orta məktəbində yerləşir. Məntəqəyə Sarıqamış, Mikayıllı, Dalğalı, Saratovka, Kürdili və Qızqayıtlı kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 050-378-44-69

21 saylı I Mayak kənd seçki məntəqəsi

Məntəqə M.Sadıqov adına I Mayak kənd tam orta məktəbində yerləşir. Məntəqəyə I Mayak və Sübh kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 58-1-03, 070-510-86-82

22 saylı Yenikənd kənd seçki məntəqəsi

Məntəqə Sübh kənd uşaq bağçası-körpələr evində yerləşir. Məntəqəyə Yenikənd və Qırmızı Şəfəq kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 050-526-95-17

23 saylı Şirvanlı kənd seçki məntəqəsi

Məntəqə İ.Babayev adına Şirvanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Şirvanlı kəndindəki yaşayış evləri daxildir.

Tel: 67-2-00, 050-643-13-52

24 saylı Abasallı kənd seçki məntəqəsi

Məntəqə Abasallı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Tatarməhlə və Abasallı kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 050-510-40-15

25 saylı Mirzəqurbanlı kənd seçki məntəqəsi

Məntəqə Mirzəqurbanlı kənd kitabxanasında yerləşir. Məntəqəyə Mirzəqurbanlı və Uzunbabalı kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 050-627-26-94

26 saylı Yuxarı Qaramanlı kənd seçki məntəqəsi

Məntəqə R.Əliyev adına Yuxarı Qaramanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Yuxarı Qaramanlı və Pirəbbə kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 53-2-75, 050-790-28-94

27 saylı II Qaralı kənd seçki məntəqəsi

Məntəqə II Qaralı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə II Qaralı kəndindəki yaşayış evləri daxildir.

Tel: 53-2-19, 050-632-28-29

28 saylı Aşağı Qaramanlı kənd seçki məntəqəsi

Məntəqə Aşağı Qaramanlı kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Aşağı Qaramanlı kəndindəki yaşayış evləri daxildir.

Tel: 62-3-43, 050-373-49-63

29 saylı Astanlı kənd seçki məntəqəsi

Məntəqə A.Cəfərov adına Astanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Astanlı kəndindəki yaşayış evləri daxildir.

Tel: 44-1-53, 050-416-93-98

30 saylı Boyat kənd seçki məntəqəsi

Məntəqə Boyat kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Boyat və Ballıcallı kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 61-3-00, 050-530-05-00

31 saylı Qaçaqkənd kənd seçki məntəqəsi

Məntəqə Qaçaqkənd kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Qaçaqkənd, Xanməmmədli, Ramazanlı və Qazaxbərəsi kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 65-2-10, 050-359-96-44

32 saylı Qırmızıkənd kənd seçki məntəqəsi

Məntəqə Qırmızıkənd kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Qırmızıkənd kəndindəki yaşayış evləri daxildir.

Tel: 55-1-22, 050-392-29-75

33 saylı Xolqaraqaşlı kənd seçki məntəqəsi

Məntəqə Xolqaraqaşlı kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Xolqaraqaşlı və Mürsəqulu kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 68-1-54, 050-351-02-55

34 saylı Xolqarabucaq kənd seçki məntəqəsi

Məntəqə Xolqarabucaq kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Xoltəzəkənd və Xolqarabucaq kəndlərinin əsas hissəsi, Kərimov Həzrətqulu Kərim oğlunun evinə qədər olan yaşayış evləri daxildir. Tel: 68-1-71, 050-474-65-11, 055-575-36-11

35 saylı Mürsəqulu kənd seçki məntəqəsi

Məntəqə İ.Səfərov adına Mürsəqulu kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Dördlər, Xolqarabucaq kəndinin sakini Kərimov Həzrətqulu Kərim oğlunun evindən Cavadov Səlahəddin Qulam oğlunun evinə kimi yaşayış evləri daxildir.

Tel: 68-3-09, 050-381-32-57

36 saylı Xəzər kənd seçki məntəqəsi

Məntəqə Xəzər kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Xəzər kəndindəki yaşayış evləri daxildir.Tel: 56-2-19, 051-382-34-44

37 saylı Qədimkənd kənd seçki məntəqəsi

Məntəqə S.Kərimov adına Qədimkənd kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Qədimkənd və I Qaralı kəndlərindəki yaşayış evləri daxildir.

Tel: 62-3-67, 050-386-95-26

38 saylı Kürqarabucaq kənd seçki məntəqəsi

Məntəqə Kürqarabucaq kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Kürqarabucaq kəndindəki yaşayış evləri daxildir. **Tel: 53-2-06, 050-**613-19-46, 050-333-50-63

39 saylı Neftçala şəhər seçki məntəqəsi

Məntəqə Neftçala şəhər 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə M.Əsədov 4A, 4Q, 4V, H.Əliyev, A.Cəfərov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 3-16-51, 050-396-55-31

40 saylı Xıllı qəsəbə seçki məntəqəsi

Məntəqə H.Nəcəfov adına Xıllı qəsəbə tibb məntəqəsində yerləşir. Məntəqəyə M.Füzuli, N.Nərimanov, Y.Qasımov, V.Məmmədov, N.Gəncəvi və İ.Sultanov küçələrindəki yaşayış evləri daxildir.

Tel: 44-2-51, 050-368-02-53

41 saylı Boyat kənd seçki məntəqəsi

Məntəqə Boyat kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Dördlər kəndindəki yaşayış evləri daxildir.

Tel: 61-2-66, 050-431-46-23

GÜNDOĞAR

№1-2 (6728) 22 yanvar 2020-ci il

SON SƏHİFƏ

HAMINI SARSIDAN QƏFİL ÖLÜM

İran İslam Respublikasının ərazisində avtomobil qəzasında faciəli şəkildə həlak olmuş rayon icra hakimiyyəti başçısının Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsini əvəz edən Böyükbala Soltan oğlu Qasımovun və onun həyat yoldaşı, şəhər 2 saylı uşaq bağçası-körpələr evinin müdiri Nəzakət Zeynal qızı Qasımovanın əziz xatirəsinə

1955-ci ildə anadan olmuş Böyükbala Soltan oğlu Qasımov Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsini bitirmişdi. Qazma idarəsində fəhlə, müxtəlif idarələrdə komsomol, partiya təşkilatlarının katibi, yol idarəsinin, "Mətbuatyayımı" rayon şöbəsinin, hava məlumatı idarəsinin müdiri və digər vəzifələrdə çalışmışdı, 2018-ci il aprel ayından isə rayon icra hakimiyyəti başçısının Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi əvəzi vəzifəsini icra edirdi.

Nəzakət Zeynal qızı Qasımova Bankə qəsəbəsində anadan olmuşdu. O da Azərbaycan Dövlət Universitetini bitirmişdi, şəhər 2 saylı uşaq bağçası-körpələr evinin müdiri vəzifəsində çalışırdı.

Əziz Böykbala müəllim, əziz Nəzakət xanım!

Artıq aramızda yoxsunuz, Allahın verdiyi ömrü başa vurub haqq dünyasına qovuşubsunuz. Amma işləriniz, əməllləriniz, xoş, işıqlı xatirələriniz bizimlədir, həmişə də bizimlə olacaq, isti, unudulmaz xatirələriniz yaşayacaq qəlbimizdə.

Vaxtlı-vaxtsız ölüm olmur, adi və qeyriadi ölüm olur. Sizinki ağır, sarsıdıcı ölüm oldu. İran İslam Respublikasına müalicə olunub sağalmaq, şəfa tapmaq üçün getmişdiniz, oradan ağır, sarsıdıcı ölüm xəbəriniz gəldi — avtomobil qəzasına uğrayıb həlak oldunuz. Bu acı xəbər hamı kimi bizim də qəlbimizi sarsıtdı. Sadəliyiniz, səmimiyyətiniz, saf xislətinizlə hamının qəlbinə rəğbət toxumu səpmişdiniz.

Əziz Böyükbala müəllim! Hamı ilə xoş rəftar edir, qəbulunuza gələnləri ehtiramla qarşılayıb razılıqla yola salırdınız. Buna görə hamı xətrinizi istəyir, sizinlə dost kimi rəftar edirdi. Dövlətə, dövlətçiliyə sadiq, tapşırılan işin öhdəsindən bacarıqla gələn təcrübəli dövlət qulluqçusu idiniz. Hansı vəzifədə çalışmağınızdan asılı olmayaraq dövlətçiliyimizin keşiyində sayıq dayanır, Heydər Əliyev ideyalarına sədaqətinizlə fərqlənirdiniz. 1993-cü ildə Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının yaradılmasında böyük xidmətiniz olmuşdu, rayonumuzda bu partiyanın ilk qurucularından, ən sadiq üzvlərindən biri idiniz, YAP rayon təşkilatı sədrinin müavini kimi fəal ideoloji iş aparırdınız. Təcrübəli bir dövlət qulluqçusu kimi möhtərəm Prezidentimiz İlham Əliyevin fərman və sərəncamlarının icrasında fəal iştirak edirdiniz, işinizdə, fəaliyyətinizdə həmin fərman və sərəncamları daim rəhbər tuturdunuz. Uzun illərdən bəri rayon icra hakimiyyəti başçısının Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyində nümayəndənin müavini vəzifəsində çalışırdınız. 2018-ci il aprel ayından isə başçının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi əvəzi vəzifəsini yerinə yetirirdiniz. Özü də layiqincə, bacarıqla. Hər bir işdə sizə inanır, etibar edirdilər.

Həyat yoldaşınız Nəzakət xanım da dövlətə, dövlətçiliyə sadiq insan, uşaqları ürəkdən sevən təcrübəli məktəbəqədər uşaq tərbiyə müəssisəsinin rəhbəri idi, şəhər 2 saylı uşaq bağçası-körpələr evinin müdiri vəzifəsində çalışırdı. Həmin uşaq tərbiyə müəssisəsindəki yüksək intizam, nümunəvi səliqə-sahman onun işinə sədaqətindən, yüksək peşəkarlığından xəbər verirdi.

Göstərdiyiniz xidmətlər layiqincə qiymətləndirilmiş, neçə fəxri mükafata layiq görülmüşdünüz. Ən böyük mükafatınız isə yaşadığınız dövrdə qazandığınız ümumxalq məhəbbəti olmuşdu. Bu məhəbbətə görə idi ki, dəfniniz, hüzür məclisiniz izdihamlı keçdi. Neftçala şəhərindən, qəsəbə və kəndlərdən, ayrı-ayrı ünvanlardan həlak olmaq xəbərinizi eşidən insanlar sizi son mənzilə yola salmaq üçün evinizə, yaşadığınız ünvana tələsirdilər. Bütün eloba sizi dərin hüznlə son mənzilə yola saldı, övladlarınıza, yaxınlarınıza, doğmalarınıza təsəlli verdi.

Ölüm sevinməsin qoy. Əcəl sizi dünyadan vaxtsız aparsa da işıqlı xatirəniz bizimlədir. Yaxınlarınız, doğmalarınız, sizi əziz tutan insanlar xeyirxah işlərinizi heç vaxt yaddan çıxarmayacaq, həmişə sizə duaçı olacaqlar. Rahat uyuyun, Allah sizi qəni-qəni rəhmət eləsin.

"GÜNDOĞAR"

Qocaman balıqçı Aslan Miriyevin vəfatından 40 gün ötür

ÖMÜR ŞƏRƏFLƏ YAŞANANDA

Ömrünü şərəflə yaşayaraq bir sıra layiqli uğurlara imza atan, rayonumuzda özünə məxsus hörməti, izzəti olan bir ağsaqqal da dünyasını dayişdi, köç etdi bu dünyadan. Aslan Lətif oğlu Miriyev 1937-ci il noyabır ayının 16-da Salyan rayonunda anadan olmuşdu. İki qardaş, bir bacı idilər. Ailəsini öz halal zəhmətilə dolandıran ataları onları gözütox böyütmüşdü.

Aslan Miriyev orta təhsilini 1944-1954-cü illərdə Salyan şəhərindəki 2 saylı tam orta məktəbində almışdır. Elə həmin il də Balıq Sənayesi Texnikumuna daxil olaraq 1957-ci ildə oranı müvəffəqiyyətlə başa vurmuşdur. Sonra təhsilini Rusiyanın Həştərxan şəhərindəki balıqçılıq institutunda davam etdirərək 1963-cü ildə ali təhsilə yiyələnmişdi.

Əmək fəaliyyətinə rayonumuzun ən böyük sənaye müəssisələrindən birində — Bankə Balıq Kombinatında briqadir kimi başlayan Aslan Miriyev yüksək məsuliyyəti, işgüzarlığı, bacarığı ilə diqqəti ilk gündən cəlb etmişdir. Elə buna görə də çox keçmədən onu irəli çəkmişlər. Əvvəlcə on il Kürağzı nərə balığı artırma zavoduna rəhbərlik etmiş,1975-1979-cu illərdə Cənub Xəzər Baş Balıqçılıq idarəsinin rayonumuzdakı müfəttişliyinin rəisi olmuşdur. Daha sonra Əli Bayramlı (indiki Şirvan) Balıqartırma Zavodunda çalışan Aslan Miriyev 1980-1986-cı illərdə Kürüstü balıqyetişdirmə təsərrüfatının, 1986-1988-ci illərdə isə Bankə Balıq Kombinatının direktoru vəzifələrində çalışmışdır.

Həmin dövrdə respublikamızda nohur balıqçılığı yenicə yaranmağa başlayırdı. Oriyatda fəaliyyətə başlayan təsərrüfat da onlardan biri idi. Özü də ən iri həcmlisi. Belə böyük təsərrüfata rəhbərlik etmək təcrübəli, yüksək ixtisaslı balıqçı kimi tanınan Aslan Miriyevə etibar edilmişdi. O uzun illər bu müəssisənin direktoru oldu. Müəssisə nəinki Neftçalanın, Bakı şəhərinin, ayrı-ayrı rayon və şəhərlərin əhalisinin təzə balığa olan ehtiyacının ödənilməsində çox mühüm rol oynadı.

50 ildən artıq davam edən əmək fəaliyyətinə nəzər salanda aydın şəkildə görmək olur ki, Aslan Miriyev bütün ömrü boyu balıqçılıq peşəsində çalışmış, təcrübəli mütəxəssis kimi bütün bilik və bacarığını rayonumuzun balıq sənayesinin inkişafına həsr etmişdir. O həm də ziyalı idi, daim öz üzərində çalışır, rayonumuzun ictimai-siyasi həyatında fəal iştirak edirdi.

Aslan Miriyev ömür-gün yoldaşı Elmira xanımla birlikdə beş övlad böyüdərək tərbiyə etmişlər. Azərbaycan Xalq Təssərrüfatı İnstitutunun məzunları olan Azər və Arif Miriyevlər uzun illərdən bəri ölkənin vergi sistemində çalışırlar. Lətif Miriyev isə Texnologiya İnstitutunu bitirib, ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 13 saylı Şirvan ərazi idarəsinin rayon şöbəsinə rəhbərlik edir. Əvvəlcə Bədən Tərbiyəsi İnstitutunu, sonra Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirən Yalçın Miriyev rayon gənclər və idman idarəsinin rəisi, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu başa vuran Əminə Rəsulova isə şəhər 1 saylı tam orta məkitəbinin müəllimidir.

82 il ömür sürən, bu müddətdə cəmiyyətdə, ictimai həyatda özünə məxsus iz qoyan Aslan Miriyevin əziz xatirəsi onu tanıyanların, doğmalarının qəlbində daim yaşayacaqdır.

"GÜNDOĞAR"

Tanınmış həmyerlilərimiz: İFAÇILIQDA İZ QOYAN İSTEDADLI İNSAN

Elçin Ağaşirin oğlu Nağıyev 1966-cı il noyabrın 10-da Neftçala rayonunun Qoltuq kəndində anadan olub. Uşaqlıqdan tar ifaçılığına böyük həvəs göstərən Elçin bu sehrli musiqi alətinin sirlərini əvvəl rayon mədəniyyət evi nəzdindəki tar dərnəyində Əkrəm Əliyevdən, 1977-ci ildən uşaq musiqi məktəbinin tar sinfində tarzən-xanəndə Teymur Hüseynovdan, III sinifdən Vilayət Kərimovdan öyrənib. II sinifdən etibarən oxuduğu musiqi məktəbinin xalq çalğı alətləri ansamblının üzvlüyünə qəbul olunub, ansamblın tərkibində AzTV-də çıxış edərək solo ifası ilə diqqəti cəlb edib, "Bahar-79" respublika müsabiqəsinin diplomuna layiq görülüb. Rayon mədəniyyət evi nəzdindəki "Bahar" mahnı və rəqs ansamblının üzvü kimi fəal ifaçılıq məktəbi keçib, Baltikyanı respublikalarda, Özbəkistanın Sır-Dərya, Amu-Dərya əyalətlərində, Daşkənd şəhərində qastrol səfərlərində olub, Bankə qəsəbə mədəniyyət evi nəzdindəki bədii özfəaliyyət kollektivinin tərkibində tanınmış aşıq Ramiz Nemətovla birlikdə Həştərxan şəhərində də konsert verib. Yeniyetmə yaşlarında o, mələhətli səsi ilə də diqqəti cəlb edib, rayon tədbirlərində lirik mahnılar ifa edib.

E.Nağıyev 1982-ci ildə Neftçala şəhər 2 saylı orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra Bakıya gələrək A.Zeynallı adına musiqi texnikumuna daxil olub, ixtisas-not üzrə Fikrət Əbdülqasımovdan, muğamdan ustad tarzən Elxan Müzəffərovdan dərs alaraq sevib-secdiyi sənətə mükəmməl yiyələnib. Burada Ramiz Zahidovun rəhbərlik etdiyi tələbələrdən ibarət xalq çalğı alətləri ansamblının üzvü olub, Adil Babayevin rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrində çalışıb, 1986-cı ildə texnikumu uğurla başa vurub.

E.Nağıyev 1986-cı ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tar sinfinə daxil olsa da, hərbi xidmətə yollanıb, Moskvada, Tbilisidə xidmət edib. Əsgərlikdə də musiqidən ayrılmayıb, hərbi hissənin nəfəs alətləri orkestrində çalışıb.

Əsgərlikdən sonra Elçin konservatoriyada təhsilini davam etdirərək əməkdar incəsənət xadimi Məmmədağa Kərimovdan, respublikanın xalq artisti Möhlət Müslümovdan ixtisas-tar dərsləri alıb, ixtisaslı bir tar ifaçısı, müəllim kimi yetişib. Ali təhsili başa vurana qədər bu tədris ocağında Azərbaycan Gənclər İttifaqının konservatoriya üzrə Tələbə Gənclər İttifaqının sədri kimi maaşlı işdə çalışıb, IV kursda konservatoriyanın nəzdindəki məktəb-studiyanın tar sinfində dərs deyib. O illərdə müşayiət qaydalarını daha mükəmməl öyrənmək üçün respublikanın xalq artisti Arif Babayevin muğam sinfində müntəzəm iştirak edib, sinfin tarzən-konsertmeysteri Rzabala Həziyevin Dövlət Muğam Teatrı ilə konsertləri olanda tələbələri müşayiət edib, daha sonra burada daimi işə götürülüb. Artıq 26 ildir ki, o, Arif müəllimlə birlikdə çalışır.

Elçin tələbəlik dövründə Sahil qəsəbəsindəki 28 saylı uşaq musiqi məktəbinin tar sinfində də dərs deyib, Niyazi adına 22 saylı uşaq musiqi məktəbində muğam dərsi deyən xanəndə Kamilə Abdullayevanın sinfində müşayiətçi-tarzən kimi də çalışıb, Azərbaycan Təhsil Nazirliyinin respublikada təhsil alan gənclərin bədii yaradıcılıq evində xalq çalğı alətləri ansamblına rəhbərlik də edib, bu kollektivlə cəbhə bölgələrində konsertlər də verib. Kamilə xanımın sinfində dərs prosesini izləyən respublikanın əməkdar artisti Süleyman Abdullayev Elçinin müşaiyətini dinləyib demişdi belə müşayiətlə oxumağa nə var ki?! O, muğamın şöbə və guşələrini düzgün çalarlarla, məzmunlu şəkildə, cümlə-cümlə, ardıcıllıqla elə təqdim edir ki, bütün bunlar şagirdləri düz istiqamətə yönəldir. Bu, dərs üçün, xanəndə üçün əsl müşayiətdir.

E.Nağıyev Xalq Konservatoriyasının muğam sinfində də Arif Babayevlə çiyin-çiyinə çalışıb, 2 il Dövlət Muğam Teatrında da çalışıb, mükəmməl ifası ilə oradakı tələbi də tam ödəyib. Xalq artistləri Aygün Bayramovanın, Nəzakət Teymurovanın, əməkdar artistlər Səbuhi İbayevin, Cabir Abdullayevin, Feyruz Səxavətin, Sevinc Sarıyevanın, Babək Niftəliyevin, İlkin Əhmədovun və bir çox başqalarının mahir sənətkar kimi yetişmələrində Arif müəllimin ustad dərsləri ilə yanaşı Elçin Nağıyevin səlis müşayiətinin də mühüm rolu olub.

Elçin Azərbaycandan kənarda da yaxşı tanınır. O, tək mahir muğam müşayiətçisi yox, həm də mahir muğam ifaçısıdır, bütün muğamları özü oxuyub tarda özü müşayiət edir. 2016-cı ildə Daşkənddən E.Nağıyevə özünü müşayiət edən müğənni kimi təklif gəlib. Elçin ora yollanaraq 40 dəqiqəlik nağıl-tamaşada "Bayatı-İsfahan" muğamını özünü müşayiət etməklə oxuyub. Bu bacarığına görə onu 2018-ci ildə Kanadaya da dəvət ediblər, orada da məşhur bir ansamblın müşayiəti ilə "Üşşaq" və "Hüseyni" muğamlarını ifa edib. Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov onu 2002-ci ildə yaradılmış dünyaca məşhur "Atlas" musiqi qrupunun rəhbəri Amsterdam Konservatoriyasının kafedra müdiri Joyell Bonsla tanış etdikdən sonra həmin qrupun tərkibində çox əlləri gəzib. Bu qrupla birgə ilk səfərləri Almaniyaya olub. Orada xalq artisti Fərəc Qarayevin bir neçə əsərini hazırlayaraq konsertə çıxıblar. O vaxtdan onun "Atlas"la birlikdə hər il müxtəlif ölkələrdə 2-3 konserti olub. Həmin konsertlərə mahir kamança ifaçısı, əməkdar artist Elşən Mansurovla birlikdə gedir. Bu konsertlər milli çalğı alətlərimizin təbliği baxımından da əhəmiyyətlidir. Amsterdam konsevatoriyasında E.Nağıyev və E.Mansurovun ustad dərsləri də keçirilir, tələbələr Azərbaycan muğamları ilə, dəraməd, rəng və təsniflərlə tanış edilirlər. Elçin müəllim Fransa vətəndaşı, məşhur ud ifaçısı Mark Loonuytla da 4 il əməkdaşlıq edib, "Yanardağ" muğam üçlüyü ilə səfərlərə gedib. Üçlüyün xanəndəsi əvvəl Ağakərim Nafis, sonra Sevinc Sarıyeva olub. 2003-cü ildə "Deleve" Bələdiyyə Teatrında A.Nafislə konserti olub, S.Sarıyeva ilə Fransada diski çıxaraq Avropada yayılıb.

E.Nağıyev 2002-ci ildən Milli Konservatoriyanın muğam kafedrasında müəllim kimi fəaliyyət göstərir, hazırda orada baş müəllimdir. Eyni zamanda Milli konservatoriya nəzdində A.Zeynallı adına muğam kollecində və humanitar kollecdə də dərs deyir. Elmi jurnallarda onun müntəzəm məqalələri çap olunur, hərtərəfli fəaliyyətinə görə Mədəniyyət Nazirliyindən, Təhsl Nazirliyindən, digər təşkilatlardan təşəkkürlər, Fəxri fərmanlar, diplomlar alır.

E.Nağıyev iki qız, bir oğul atasıdır. Qızları artıq pərvazlanıb, nəvələri var. Oğlu Hüseyn isə Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Respublika İncəsənət Gimnaziyasının kamança sinfində təhsil alır, müxtəlif olimpiada, festival və müsabiqələrdə daim fərqlənir. O, 2019-cu ilin may ayında uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının III respublika müsabiqəsində I yerə çıxıb. Həmin müsabiqədə münsiflər heyətinin sədri xalq artisti Ramiz Quliyev Hüseynin ifasını dinlədikdən sonra deyib müsabiqədə 570 şagird dinləmişik, belə istedada isə rast gəlməmişik. Deməli, irs itmir, gənc nəsillərdə davam edir...

Əhsən Rəhmanlı,
tədqiqatçı, sənətşünaslıq

NURƏDDÍN NƏZƏROVUN RƏNGLƏR DÜNYASI

Neftçalanın rəssamlıq məktəbi tanınmış rəssam Adil Hacıyevin adı ilə bağlıdır. Adil müəllim geyimi, hərəkətləri, bütün xüsusiyyətlərilə əsl "incə sənət" adamı idı. O, rayonun əksər ümumtəhsil məktəblərində təsviri sənətdən dərs deyir, kiçik yaşlarından şagirdlərin estetik zövqünü formalaşdırır, duyğularına gözəllik toxumu səpir, Neftçalada rəssamlıq məktəbinin bünövrəsini qoyurdu. Təsadüfi deyil ki, respublikamızın çoxsaylı rəssamlar ailəsində Neftçala rəssamları özlərinin ruhları, dəst-xətləri ilə ayrıca fərqlənirlər, burada başqa bölgələrə nisbətən dahı çox rəssam yetişib. Adil müəllimin yetirməsi olan tanınmış rəssamlarımızdan biri də Azərbaycan Rəssamlar İttifaqının üzvü Nurəddin Nəzərovdur.

Nurəddin Nəzərov 1958-ci ildə Bankə qəsəbəsində mühəndis ailəsində anadan olub. Atası Ənvər Nəzərov ixtisasca neft mühəndisi olsa da mədəniyyətə, incəsənətə yaxın olub, rayonun teatr truppasında rejissor kimi də fəaliyyət göstərib. Nuröddində incəsənətə maraq da atasından keçib. 1970-ci ildə ailəsi ilə birlikdə Neftçala şəhərinə köçdükdən sonra o, buradakı pioner və məktəblilər evi nəzdində fəaliyyət göstərən Adil Hacıyevin rəsm dərnəyinə gedib, tezliklə həmin dərnəyin fəal üzvlərindən birinə çevrilib. Bu həvəs də 1974-cü ildə Nurəddini Əzimzadə adına rəssamlıq məktəbinə aparıb, 1978-ci ildə oranı bitirərək peşəkar rəssamlıqla məşğul olmağa başlayıb.

Nurəddin Nəzərov kino yaradıcılığına da həvəs göstərir, bir neçə kinoda epizodik rola da çəkilib.

Rəssamın ən böyük çətinliyi yaratdıqlarını emalatxanasından çıxarmasıdır. Gözdən uzaq olanlar könüldən də uzaq qalır, tamaşaçısını vaxtında tapmır. Rəsm əsərinin əsas yeri evlərin, mənzillərin, idarə binalarının divarları, rəsm qalereyalarıdır. O yerlərə yol isə fərdi sərgilərdən keçir. Ancaq fərdi sərgi təşkil etmək asan iş deyil. Bunun üçün kifayət qədər diqqəti cəlb edən rəsm əsərin olmalıdır. Bu mənada hər rəssamın fərdi sərgisi onun ən böyük bayramıdır. Bu yaxınlarda Nurəddin Nəzərov üçün də belə bir sənət bayramı oldu. 2019-cu il noyabrın 14-də Heydər Əliyev Mərkəzində onun "2+1" adlı üçüncü fərdi sərgisi açıldı. Bura xeyli təsviri sənət həvəskarı toplaşmışdı.

Sərgini giriş sözü ilə mərkəzin direktoru Könül Məmmədova açdı. Şair-yazıçı-publisist, "Qızıl qələm" mükafatı laureratı İsrail İsmayılov, şəhər 1 saylı tam orta məktəbinin müəllimi Etibar Əbilov və başqaları çıxış edərək Nurəddin Nəzərovun yaradıcılığından, sərgidə nümayiş etdirilən əsərlərin sənətkarlıq xüsusiyyətlərindən danışdılar. Daha sonra sərgiyə baxış başladı.

Sərgidə rəssamın 50 rəsm əsəri nümayiş etdirilirdi. Onların arasında maraqlı dəniz, təbiət təsvirləri, portretlər var idi. "Evə qayıdarkən", "Kleapatra", "Çimərlikdə", "Yusif Məmmədəliyevin portreti" və digər əsərlər diqqəti daha çox cəlb edirdi. Tamaşaçılar əsərləri nəzərdən keçirməklə yanaşı, təəssüratlarını sərginin rəy kitabçasına da qeyd edirdilər.

Ələvsət ƏLİYEV

Minnətdarlıq: Əlləriniz var olsun

Çox vaxt biz sağlamlığımızı itirəndə, ciddi narahatlıqlar keçirəndə əl-ayağa düşürük, həkimə müraciət edirik. Halbuki, bir çox hallarda orqanizmimiz siqnal verib xəbərdarlıq etsə də, biz buna kifayət qədər məsuliyyətlə yanaşmırıq, "keçib gedər" deməklə özümüzdə arxayınlıq yaradırıq. Amma delə hallar heç vaxt özü-özünə keçib getmir, xəstəlik daha da şiddətlənərək ciddi şəkil alır.

Mənim də halım beləcə dəyişdi, özümü pis hiss etməyə başladım. Növbətçi həkimə zəng etdik. Çox keçmədi, "təcili yardım" maşını gəlib çıxdı. Yubanmadan məni Neftçala mərkəzi xəstəxanasının cərrahiyyə şöbəsinə apardılar. Şöbə müdiri Xəlil həkimin müayinəsindən sonra aydın oldu ki, daxildə qanaxma var, mütləq xəstəxana şəraitində müalicə olunmalıyam.

Belə də oldu. Cərrah Xəlil Bağırovun rəhbərliyi altında müalicə kursuna başlanıldı. Müalicə başa çatanda özümü yaxşı hiss edirdim, əvvəlki narahatlıqlarım, ağrılarım keçib getmişdi. Buna baxmayaraq Xəlil həkimin məsləhəti ilə Bakıdakı "Bona DEA" klinikasında tibb elmləri namizədi, kostroloq Günlar Vəliyeva məni bir daha təkrar müayinədən keçirdi. Bildirdi ki, müalicə səmərəli aparılıb, xəstəlik tamamilə sağalıb, narahatlığa heç bir əsas yoxdur.

İndi özümü doğrudan da yaxşı hiss edirəm. Heç bir əziyyətim, narahatlığım yoxdur. Buna görə "Neftçala Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin baş direktoru Telman Zahidova, baş direktorun müavini Ramiz Əliyevə, tanınmış cərrah, xilaskarım Xəlil Bağırova, cərrahiyyə şöbəsinin bütün tibb kollektivinə, kostroloq, tibb elmləri namizədi Günlar Vəliyevaya ürəkdən minnətdarlığımı bildirir, onların hər birinə əlləriniz var olsun deyirəm.

Kəlbihüseyn Hüseynov,
Neftçala şəhər sakini

Yurd əfsanəsi

Satılır burada ocaq da, od da,
O güllü beşiyin qiyməti hanı?
Eldən uzaq düşüb doğma da, yad da,
Keçibdi dövranı, ötüb zamanı.

Vağzalı çalınar, gəlin gələrdi,
Burda bəy tərifi ucalıb göyə.
Ayaqlar altına xalı sərilib,
Qismətə, vüsala çatmışıq deyə.

Doğuldu, böyüdü övlad sırvinci,
Necə xoşbəxt idi burda uşaqlar.
Bir ömür müjdəsi, həyat sevinci,
Yanırdı hər gecə nurlu çıraqlar.

Övladlar durna tək uçub getdilər,
Neçə insan ömrü çatıbdır sona,
O məskən salanlar köçüb getdilər
Hər kəs mehman oldu təzə ünvana.

Beşiklər laylasız, ocaqlar donub,
Bəzəkli qapılar indi bağlıdır.
Bağçalar saralıb, çiçəklər solub,
Bu evin ürəyi necə dağlıdır...

Satılan evlərin sahibi kimdir?
Ata ocağını yadlar alacaq.
Naxışlı divarlar qüssəli, qəmli,
Özgələr burada məskən salacaq.

Müqəddəs ocaqlar satılır bu gün,
Xarı bülbüllərin nəğməsi ağlar.
Ağırdır sınağı insan ömrünün,
Dönübdü səhraya o yaşıl bağlar.

Satılır yurd, ocaq, hamı köç edir,
Bu qərib obalar tənha qalıbdır,
Yurdu bilinməyən karivan gedir,
Ulduzlar pərişan, fikrə dalıbdır.

Nədir bu aləmin sirri, mənası?
Bir ömür yaşadı burda hər insan.
Belədir son yurdun alın yazısı,
ocaqlar lamənan, həyat
lamənan...

İmamverdi ZEYNALOV

Vergi ödəyicilərinin nəzərinə!

Hörmətli vergi ödəyicisi!

Nəzərinizə çardırırıq ki, 2019-cu ilin 4-cü rübü üzrə Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatı 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim etmək və Məcburi dövlət sosial sığortası üzrə 2019-cu ilin dekabr ayı üzrə hesablanmış sığorta haqqını 2020-ci ilin yanvar ayının 15-dən gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödəməlisiniz.

Araşdırma zamanı məlum olmuşdur ki, tərəfinizdən 2019-cu ilin 3-cü rübü üzrə Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatı vergi orqanına qanunvericiliklə müəyyən edilmiş müddətdə təqdim edilməmişdir.

Vergitutmanın ümumi əsasları, vergilərin ödənilməsi qaydaları (ödənilməsi mənbələri istisna olmaqla), vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydaları ilə bağlı müddəaları məcburi dövlət sosial sığorta haqqına münasibətdə də tətbiq olunur.

Hesabat formaları və onların tərtib edilməsi qaydaları barədə məlumatları Vergilər Nazirliyinin (http://www.taxes.gov.az/az/page/beyenname-ve-erize-formalari) rəsmi internet səhifəsinin "Bəyannamə" bölməsindən əldə edə bilərsiniz.

Yuxarıda sadalananlar Vergi Məcəlləsinin 1-ci, 57.1-ci, 58.1-ci, və 59.1-ci maddəsi http://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi) və 18 fevral 1997-ci il tarixli 250-IQ nömrəli "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu (http://e-qanun.az/framework/-3813 saytı vasitəsilə tanış ola bilərsiniz) ilə tənzimlənir.

Bununla yanaşı, qanunvericiliyin tələblərinin pozulmasına görə Vergi Məcəlləsində vergi ödəyicisinə qarşı müvafiq məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur:

-Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat əsas olmadan müəyyən edilən müddətdə vergi orqanına vaxtında təqdim edilmədiyi halda Sizə vergi orqanı tərəfindən 40 manat məbləğində maliyyə sanksiyası, hesablanmış Məcburi dövlət sosial sığortası üzrə sığorta haqqı müəyyən edilmiş müddətdə ödənilmədikdə isə, hər bir ötmüş gün üçün (bir ildən çox olmamaq şərti ilə) ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tətbiq ediləcəkdir.

Əlavə məlumatı Vergilər Nazirliyinin rəsmi internet saytına (www. taxes-.gov.az.) müraciət etmək və (və ya) 195 nömrəli Çağrı Mərkəzinə zəng etməklə, eləcə də 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (Şirvan şəhəri, G.Şıxbala oğlu küçəsi 14) və ya yaxınlıqda olan digər xidmət mərkəzlərinə (Sabirabad şəhəri, İ.İsgəndərov küçəsi, Neftçala şəhəri, H.Əliyev prospekti 35, Saatlı şəhəri, Q.Qarayev 5, Salyan şəhəri, H.Əliyev prospekti və Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 15) gəlməklə əldə edə bilərsiniz və ya sizə yaxın olan digər vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Məlumat üçün qeyd edək ki, vergi orqanının vergi ödəyiciləri ilə keçirdiyi görüşdə iştirak etmək istədiyiniz təqdirdə xidmət mərkəzlərinə və ya internet vergi idarəsinin (https://login.e-taxes.gov.az/login/)"Onlayn kargüzarlıq" bölməsi vasitəsilə müraciət edərək görüşlər və onların qrafiki barədə ətraflı məlumat ala və görüşlərə yazıla bilərsiniz.

5 saylı Ərazi Vergilər İdarəsi

Bankə qəsəbə sakini Zabil Əkbər oğlu Mirzəyevin adına verilmiş 25 may 2006-cı il tarixli, JN-439F (KOD:80700016) nömrəli torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyinə görə etibarsız sayılır.

Boyat kənd sakini Xanhüseyn Kamil oğlu Kazımovun adına verilmiş 14 aprel 2000-ci il tarixli, JN:248 (KOD:80703018) nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyinə görə etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi

BÖYÜKBALA QASIMOVUN

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi qocaman balıqçı

ASLAN MİRİYEVİN

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyası rayon təşkilatı idarə heyətinin üzvləri, təşkilatın sədr müavini, şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi

BÖYÜKBALA QASIMOVUN

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi rayon gənclər və idman idarəsinin rəisi Yalçın Miriyevə, atası

ASLAN MİRİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Neftçala rayon komitəsinin sədri Gülqayıt Mürsəlova rayon gənclər və idman idarəsinin rəisi Yalçın Miriyevə, atası

ASLAN MİRİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi

BÖYÜKBALA QASIMOVUN

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "Futbol+Qəzeti Redaksiyası MMC" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 510 Sifariş № 2
Bir nömrənin qiyməti: 40 qəpik.